# Sənaye məhsulları istehsalında qeyri-dövlət sektorunun payı artır

**Prezident İlham Əliyevin təşəbbüsü və konkret tədbirləri ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatlar öz müsbət nəticələrini verir. Dövlət başçısı andiçmə mərasimindəki çıxışında ölkənin əldə etdiyi bu nailiyyətləri qeyd edərkən demişdir ki, cari ilin yanvar ayında ölkə üzrə ümumi daxili məhsulda 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artım müşahidə edilmişdir.**

Qeyri-neft sektorunda qazanılan bu uğurda qeyri-neft sənayesinin çəkisi yüksəkdir. Dövlət Statistika Komitəsinin ötən ilin yekunlarına dair açıqladığı rəqəmlərdən aydın olur ki, il ərzində sənayedə qeyri-dövlət sektorunun payı 84,5 faiz olmuşdur. Cari ilin yanvar ayında da sənayedə qeyri-dövlət sektorunun payı artmışdır. Keçən ay ərzində ölkə üzrə istehsal olunan sənaye məhsullarının 84,7 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Həmin ay ümumi istehsalın 90,8 faizi sənaye məhsullarının istehsalı, 9,2 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaranmışdır.

Yeri gəlmişkən, qeyd edək ki, ilin ilk ayında mədənçıxarma sənayesinin əsas məhsulu olan əmtəəlik neft hasilatı 2,5 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 3,3 milyard kubmetr təşkil etmişdir. Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 8,3 faiz azalmış, əmtəəlik qaz hasilatı 4,2 faiz artmışdır.

Emal sektoruna gəldikdə, ay ərzində burada 1 milyard 400,4 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Hesabat dövründə bu sektorda tütün məmulatları, viski istehsalı, duru bitki yağları, şəkər, qənd və siqaret istehsalında yüksək səviyyədə artım müşahidə edilmişdir. Eləcə də toxuculuq sənayesi, geyim, dəri və dəridən hazırlanan məmulatların, ayaqqabıların istehsalı sahələrində əvvəlki ilin yanvar ayı ilə müqayisədə artım qeydə alınmışdır.

Hesabat dövründə kimya sənayesi, əczaçılıq məhsulları, rezin və plastik kütlə məmulatları sahələrində 166,8 milyon manatlıq məhsul istehsal edilmişdir. Burada ən çox artım əczaçılıq məhsulları üzrə olmuşdur. Ay ərzində bu sahədə 2,8 dəfə artım müşahidə edilmişdir. Eyni zamanda rezin və plastik kütlə məmulatları, etilen, propen (propilen), məsaməli plastik kütlədən sair plastilinlər, lövhələr, polietilendən kisə və çantalar istehsalında da artım dinamikası yüksək olmuşdur.

Məlumdur ki, hər bir məhsula olan tələbatın yüksək olması onun istehsalının artmasını stimullaşdırır. Bu baxımdan işğaldan azad edilən ərazilərdə icra olunan nəhəng quruculuq və bərpa işləri ilə bağlı tikinti materiallarına tələbat dəfələrlə artmışdır. Həmin sahədə fəaliyyət göstərən sahibkarlar da bu imkanı dəyərləndirərək bazara daha çox məhsul çıxarmağa çalışırlar. Hesabat dövründə tikinti materiallarının istehsalında ötən ilin müvafiq dövrü ilə müqayisədə 34,5 faiz artımın qeydə alınmasının səbəbi də budur.

Hazırda sənaye sektorunda ən çox gəlir gətirən sahələrdən biri də kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalıdır. Ölkəmizdə sözügedən sahə yeni formalaşmasına baxmayaraq, burada da yüksək artım dinamikası var. Belə ki, təkcə ötən ay ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə stolüstü kompüterlərin istehsalı 3,3, notbukların istehsalı 2 dəfə, güc transformatorlarının istehsalı 83,3, ölçmə cihazların istehsalı isə 51,5 faiz artmışdır.

Ölkədə qeyri-neft sektorunun inkişafı məqsədilə icra olunan islahatlar bu sahədə ixracın artmasına da imkan yaratmışdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, cari ilin yanvar ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 11,5 milyon dollar dəyərində qeyri-neft məhsullarının ixracı həyata keçirilmişdir. Qeyd edək ki, mərkəzə keçən ay 146 müraciət daxil olub, 291 sertifikat (169 ədəd mənşə, 1 ədəd baytarlıq, 111 ədəd fitosanitar, 10 ədəd CİTES) təqdim edilib. Xatırladaq ki, 2023-cü ildə mərkəz vasitəsilə ixrac edilən qeyri-neft məhsullarının dəyəri 242,9 milyon dollar təşkil etmişdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.9.